Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Murğuzallı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qəhrəmanov Bəxtiyar Aslan oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 3 yanvar 2015-ci il tarixli, 126 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 04 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Murğuzallı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qəhrəmanov Bəxtiyar Aslan oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 yanvar 2015-ci il tarixli, 126 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Murğuzallı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qəhrəmanov Bəxtiyar Aslan oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsinin 20 saylı seçki məntəqəsində səsvermənin nəticələrinin saxtalaşdırıldığını bildirmiş, adıçəkilən seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsiz hesab edilməsini və pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də müraciət vətəndaşa geri qaytarılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən

(hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Murğuzallı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Qəhrəmanov Bəxtiyar Aslan oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 yanvar 2015-ci il tarixli, 126 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov